TIL VA MADANIYAT

O'ZBEKISTON

ISSN 2181-922X

# UZBEKISTAN

## LANGUAGE & CULTURE

2026 Vol. 2

tsuull.uz
uzlc.tsuull.uz

ISSN 2181-922X

# O‘ZBEKISTON:
## TIL VA MADANIYAT

# UZBEKISTAN:
## LANGUAGE AND CULTURE

2026 Vol. 2
tsuull.uz
uzlc.tsuull.uz

Alisher Navoiy nomidagi Toshkent davlat oʻzbek tili va adabiyoti universiteti

**Bosh muharrir:** Shuhrat Sirojiddinov

**Bosh muharrir oʻrinbosari:** Nozliya Normurodova

**Mas'ul kotib:** Ozoda Tojiboyeva

**Tahrir kengashi**

Hamidulla Dadaboyev, Nurboy Jabborov, Mustafo Bafoyev, Samixon Ashirboyev, Shodmon Vohidov (Tojikiston), Farxod Maqsudov, Adham Ashirov, Zohidjon Islomov, Bahodir Karimov, Saodat Muhamedova, Aftondil Erkinov, Uzoq Joʻraqulov, Iroda Azimova, Dilnavoz Yusupova, Dilorom Ashurova, Ziyoda Teshaboyeva, Zulxumor Xolmonova, Z.Ortiqova, Komil Kalonov, Botir Elov, Manzura Abjalova, Rasul Atamuratov.

**Tahrir hay'ati**

Nazef Shahrani (AQSH)
Elizabetta Ragagnin (Italiya)
Ahmadali Asqarov (Oʻzbekiston)
Isa Habibbeyli (Ozarbayjon)
Akmal Nur (Oʻzbekiston)
Almaz Uvli (Ozarbayjon)
Muzaffar Komilov (Oʻzbekiston)
Tanju Seyhan (Turkiya)
Alizoda Saidumaran (Tojikiston)
Nikolas Kantovas (Buyuk Britaniya)
Akmal Saidov (Oʻzbekiston)

"Oʻzbekiston: til va madaniyat" jurnali – lingvistika, tarix, adabiyot, tarjimashunoslik, san'at, etnografiya, falsafa, antropologiya va ijtimoiy tadqiqotlarni oʻrganish kabi sohalarni qamrab olgan akademik jurnal.

Jurnal bir yilda toʻrt marta chop etiladi.

Jurnalning maqsadi – koʻrsatilgan sohalarga oid dolzarb mavzulardagi bahs-munozaraga undaydigan, yangi, innovatsion g'oyalarga boy, oʻz konsepsiyasiga ega boʻlgan tadqiqotlarni nashr etishdir.

Ingliz, rus va oʻzbek tillaridagi, shuningdek, boshqa turkiy tillarda yozilgan maqolalar qabul qilinadi. Iqtisodiy tahlillar hamda siyosatga oid maqolalar e'lon qilinmaydi.

Jurnalda kitoblarga yozilgan taqrizlar, adabiyotlar sharhi, konferensiyalar hisobotlari va tadqiqot loyihalari natijalari ham e'lon qilinadi. Mualliflar fikri tahririyat nuqtayi nazaridan farq qilishi mumkin.

Alisher Navoiy nomidagi Toshkent davlat oʻzbek tili va adabiyoti universiteti.

Oʻzbekiston, Toshkent, Yakkasaroy tumani, Yusuf Xos Hojib koʻchasi, 103.

**Email:** uzlangcult@gmail.com
**Website:** www.uzlc.tsuull.uz

Alisher Navo'i Tashkent State University of the Uzbek Language and Literature

**Editor-in-Chief:** Shuhrat Sirojiddinov

**Deputy Editor in Chief:** Nozliya Normurodova

**Executive secretary:** Ozoda Tajibaeva

**Editorial board**

Hamidulla Dadaboev, Nurboy Jabbarov, Mustafo Bafoev, Samikhan Ashirboev, Shodmon Vohidov (Tajikistan), Farhad Maksudov, Adham Ashirov, Zohidjon Islamov, Bahodir Karimov, Saodat Muhamedova, Aftondil Erkinov, Uzoq Jurakulov, Iroda Azimova, Dilnavoz Yusupova, Dilorom Ashurova, Ziyoda Teshabaeva, Zulxumor Kholmonova, Z.Ortiqova, Komil Kalonov, Botir Elov, Manzura Abjalova, Rasul Atamuratov.

**Editorial Committee**

Nazif Shahrani (USA)
Elisabetta Ragagnin (Italy)
Ahmadali Asqarov (Uzbekistan)
Isa Habibbeyli (Azerbaijan)
Akmal Nur (Uzbekistan)
Almaz Uvli (Azerbaijan)
Muzaffar Komilov (Uzbekistan)
Tanju Seyhan (Turkey)
Alizoda Saidumar (Tajikistan)
Nicholas Kontovas (Great Britain)
Akmal Saidov (Uzbekistan)

"Uzbekistan: Language and Culture" is an academic journal that publishes works in the field of linguistics, history, literature, translation studies, arts, ethnography, philosophy, anthropology and social studies.

The journal is published four times a year.

The purpose of the journal is to publish the results of the latest research that are rich in new, innovative ideas and has its own concept, which stimulates debate on topical issues in these areas.

The language of articles can be English, Russian and Uzbek. Other Turkic languages are also welcome. We do not publish economic analyses or political articles.

In addition to research articles, the journal announces book and literary work reviews, conference reports and research project results.

The authors' ideas may differ from those of the editors'.

Alisher Navo'i Tashkent State University of the Uzbek Language and Literature.

103, Yusuf Khos Hojib, Yakkasaray, Tashkent, Uzbekistan.

**Email:** uzlangcult@gmail.com
**Website:** www.uzlc.tsuull.uz

## MUNDARIJA

### LINGVISTIKA

**Dilfuza Nurmanova, Nodirabegim Ismoilova**
O‘zbek tilshunosligida Qur’oni Karim teolingvistik tadqiqot obyekti sifatida ........ 6

**Dilrabo ELOVA**
Normativ-huquqiy matnlarni lingvo-mantiqiy ekspertiza qilish metodologiyasi (Soliq kodeksining 248-moddasi misolida) ........ 24

**Вафа Абдуллаева-Набиева**
Развитие синтаксиса азербайджанского языка в рамках лингвокультурологии ........ 40

**Kamil Tilyabayev**
O‘zbek tili: o‘rganish, dekolonizatsiya va hissiyot ........ 58

**Shaxlo Naraliyeva**
O‘zbek badiiy prozasida ekologik diskursning kognitiv-pragmatik tadqiqi (O‘tkir Hoshimov va Tog‘ay Murod asarlari misolida) ........ 82

### ADABIYOTSUNOSLIK

**Gulbahor Ashurova**
Turkum she’rlar – Alisher Navoiy obrazini yaratishda lirik vosita sifatida........ 95

**Abdug‘ani Nasriddinov**
Adabiyotda falsafa va dinning uyg‘unligi ........ 108

### FAN. TA’LIM. METODIKA

**Umidjon Kushayev**
Sun’iy intellektning ta’lim tizimiga integratsiyasi: institutsional transformatsiya va strategik model (O‘zbekiston misolida) ........ 120

**Мадина Назарова**
Формирование иноязычной риторической компетенции на материале английского официально-делового дискурса в неязыковом вузе ........ 133

### TARIX. MANBASHUNOSLIK

**Shamsiddin Kamoliddin**
Somoniylar va o‘g‘uz turklari ........ 149

**İlhami Cəfərsoy**
Avrasiyanın qədim Xivə, Samara və Buxara şəhərləri ........ 172

## CONTENT

### LINGUISTICS

**Dilfuza Nurmanova, Nodirabegim Ismoilova**
The Holy Qur'an as an Object of Theolinguistic Research in Uzbek Linguistics......6

**Dilrabo Elova**
Methodology of Linguo-Logical Expertise of Normative Legal Texts ........24

**Vafa Abdullayeva-Nabiyeva**
Development of the Syntax of the Azerbaijani Language Within the Framework of Linguoculturology ......40

**Kamil Tilyabaev**
Uzbek Language: Acquisition, Decolonisation and Emotions ......58

**Shakhlo Naralieva**
A Cognitive-Pragmatic Study of Environmental Discourse in Uzbek Fiction (based on the works of Utkir Koshimov and Togay Murad)............82

### LITERATURE

**Gulbahor Ashurova**
Cycle of Poems as a Lyric Device in the Creation of the Image of Alisher Navo'i ......95

**Abdugani Nasriddinov**
The Harmony of Philosophy and Religion in Literature ......108

### SCIENCE. EDUCATION. METHODOLOGY

**Umidjon Kushaev**
Integration of Artificial Intelligence into the Education System: Institutional Transformation and Strategic Model (Uzbekistan as an Example) ............120

**Madina Nazarova**
Formation of Foreign-Language Rhetorical Competence Through English Official-Business Discourse in Non-Language Higher Education...133

### HISTORY. SOURCE STUDIES

**Shamsiddin S. Kamoliddin**
Samanids and Oghuz Turks ......149

**Ilhami Jafarsoy**
Ancient Khiva, Samara and Bukhara Cities of Eurasia ......172

ISSN 2181-922X 172—184

# Avrasiyanın qədim Xivə, Samara və Buxara şəhərləri

İlhami Cəfərsoy[1*]

**Özet**

Özbək xalqının əcdadları yalnız Orta Asiyanın deyil, Şimali Çindən başlamış Aralıq dənizi sahillərinə, Siciliyaya, Ural dağlarından başlamış Nil vadisinə qədər qədim dövlətlərin, mədəniyyətlərin yaradıcılarından biridirler. Həmin elitar nəsillərindən üçü Xivə, Samar və Buxardır. Onlar latınlardan, yunanlardan, romalılardan qabaq Ön Asiyada, Cənubi Qafqazda Xivə, Buxara, Samara şəhərlərini salmış, Krımla Aralıq dənizi, Misir arasında davamlı ticarət əlaqələri yaratmışlar.

Ruslaşmış Buxar nəslindən Buxarın soyadlı knyazlar, gürcüləşmiş Buxar nəslindən Buxaralidze İoan adlı kilsə salnaməçisi çıxmışdır.

Məqalədə belə bir aktual problem elmi ictimaiyyətin müzakirəsinə çıxarılır ki, Romaniyanın paytaxtı Buxarest şəhərinin adı Buxar etnonimindən törəmişdir. Məqalədə Buxar nəslinə qohum olan Baxar nəslinin də etnik kimliyi etnolinqvistik tədqiqatın obyektinə çevrilmişdir. Baxar nəslinin bir qolu İberiyanın hakim nəsillərindən biri olmuş, bir qolu qədim Misirdə Baxar şəhərini salmışdır. Onların bir hissəsi də Aralıq dənizində güclü donanma yaradıb Siciliya adasını tutmuş, orada latınlardan qabaq Baxar şəhərini salmışdır.

Avrasiyanın qədim elitar nəsillərindən biri də Samardır. Onlar yalnız Orta Asiyanın yox, qədim Ön Asiyanın, Aralıq dənizinin şərq sahillərinin, sonralar cənubi rus çölləri adlanan Türk torpaqlarının slavyanlara, iudalara, hindavropalılara qədərki dövlətinin, mədəniyyətlərinin yaradıcılarıdır.

Samarlar və Xivələr qohum xalqlar idilər. Onların adı eradan əvvəl III minilliyə aid Şumer mixi yazılarında çəkilir. Onlar Azərbaycanın Aran mahalından Finikiyaya köçdülər. Yüksək bir dağın üstündə Samar qalasını salıb, qədim prototürk dövlətlərdən birini yaratdılar. Ernst Renan xristianlığın ilk əsrlərinin tarixi kitabının 1873-cü il nəşrində yazır ki, Samar alpları Kənan tayfa ittifaqının tərkibində Finikiyada şəhər salıb özlərinə dövlət quranda hələ iudalar Fələstinə gəlməmişdilər.

Samarlar bir şəhəri də Cənubi Qafqazda salmışdılar. Həmin şəhər Makedoniyalı İsgəndərin zamanına qədər qalırdı. Özbək xalqının Xivə, Buxar, Samar adlı əcdadları həm özbəklərin, həm Azərbaycan və Anadolu türklərinin əcdadlarıdır. Biz birlikdə bu tarixi etnogenetik və etnolinqvistik

[1] *İlhami Yusif Cəfərsoy* – filologiya elmləri doktoru, dosent, AMEA Nəsimi adına Dilçilik İnstitutu.
**E-mail:** cfrsoy@mail.ru
**ORCİD İD:** 0000-0003-3453-2657
**Alıntı için:** İlhami Cəfərsoy. 2026. "Avrasiyanın qədim Xivə, Samara və Buxara şəhərləri". *Özbekistan: Dil ve Kültür* 2: 172 – 184.

bağları elmi tədqiqatın obyektinə çevirməliyik.

**Açar sözlər:** *Xivə, Buxar, Samar, Özbək, Türk, Aran, Finikiya.*

**Giriş**

Özbək xalqının əcdadları digər qardaş Türk xalqları ilə birlikdə qədim Avrasiya mədəniyyətinin yaradıcılarıdır. Həmin xalqlardan biri buxarlardır. Buxar övladlarının yadigarı kimi Özbəkistanda Buxara şəhəri qalmışdır. V. V. Radlov yazır ki, Buxara tatarları özlərini Buxarlık adlandırırlar [Радлов 1989, 605]. Buxarların bir oymağı da cənub-qərbi Sibirdə yaşayırdı. Tümen vilayətindəki Buxar qəzası [Радлов 1989, 693] onların tarixi vətənlərindən biridir.

Üç yüz ilə yaxındır ki, Buxar türklərinin torpağı Rusiya Federasiyasının tərkibinə qatılmışdır. Rusiya bu sürətlə zəifləyərsə, o qəzanın Özbəkistana birləşdirilməsi haqqında iddia Özbək xalqının qanuni haqqıdır. Buxar adına qırğızlar arasında da rast gəlirik. Kırqız - Kazax xanı Ablayın Buxar jırau adlı qopuzçu ozanı var idi [Валиханов 1984, 2016]. O, 1688-1721-ci illərdə yaşamışdır. Buxarların bir hissəsi də Cənubi Qafqaza və İranın şərqinə köçmüş, Azərbaycan xalqının mənşəyinə daxil olmuşdur. Kaşkayların arasında XVII-XVIII əsrlərdə Buqarli tayfasının varlığı fikrimizi təsdiq edir.

İ. İ. Şopen yazır ki, İrəvan quberniyasında Buqarli adlı kənd var [Шопен 1852, 1123]. Buxarlılar tərəkəmə elat idilər. Onların bir oymağı İrəvan çuxurunda qışlayar, yayda Göyçə gölü ətrafına yaylağa gələrdi.

Aşıq Ələsgər onların yaylaqlarından birinin Tanket Buxarı olduğunu yazır.

Əyricə, Verst dağı, Tanket Buxarı,
Ağ sürülər Sarı yaldan yuxarı.

Buxarların bir qolu Albaniyadan Gürcüstana köçmüş, orada xristian dinini qəbul edib illər ötəndən sonra gürcüləşmişdir. Gürcü tarixçiləri onları Pukaralidze, yəni Buxaralı adlandırırlar.

Buxaralı xristianlardan XI əsrdə bir neçə kilsə salnaməçiləri, elm və din xadimləri çıxmışdır. Onlardan biri Pukaralidze İoan idi [Амиранашвили 1956, 7, 38, 53].

Buxar nəslinin bir hissəsi də Kızıl Ordanın süqutundan sonra Rusiyaya köçmüş, öz qılıncı ilə rus çarlarına xidmət etmişdir. Rus zadəganlarının Məxmər kitabında onların soyadı Buxarin formasındadır.

N. A. Baskakov yazır ki, rusların Buxarin knyaz nəsli Türk mənşəlidir [Баскаков 1979, 175]. Onların knyaz nəslinin gerbində 6 guşəli ulduz şəkli var idi [Баскаков 1979, 176].

Bəzi salnaməçilər Buxar və Baxar türklərini eyniləşdirirlər. Əslində isə onlar eyni yox, qohum tayfalar idilər. Baxarların adı Bakar formasında Bibliyada çəkilir və onlar bene-Kadem övladları kimi təqdim olunurlar [Архимандрит Іероним 1843, 58]. Bene-Kadem övladları o zaman Ön Asiya, Turan mənşəli tərəkəmə oymaqlara deyilirdi.

Bibliyanın ilk nüsxəsi eradan öncə X əsrdə yazıya alınmışdır. Ondan çox qabaq baxarlar Şumerdə yaşamış, Dəclə və Fərat çaylarının qovuşduğu yerdə Baqar məbədini inşa etmişdilər [Канева 1996, 169].

Şumer şəhərləri yadelli tayfaların basqınlarına məruz qalanda baxarlar iki yerə bölündülər, Cənubi Qafqaza və Nil vadisinə köçdülər, çay sahilində Batu el-Bakarak şəhərini saldılar. B. A. Turayev yazır ki, Batu el-Bakarak eradan öncə II minillikdə Misirin böyük şəhərlərindən biri idi [Тураев 1915, 15].

Baxarların bir hissəsi də Aralıq dənizinin şərq sahillərindən Siciliya adasına köçmüşdü. Onların Siciliyada saldıqları şəhər və qala XIX əsrədək qalırdı. Bu barədə Avraam Nopov 1828-ci ildə nəşr etdirdiyi "Siciliyaya səyahət" kitabının I cildində məlumat verir [Норов 1828, 77, 82]. Biz türklər yalnız Orta və Ön Asiyanın yox, Finikiyanın, Misirin, cənub-qərbi Avropanın qədim mədəniyyətlərinin və dövlətlərinin yaradıcılarıyıq.

Cənubi Qafqaza köçən Baxar bəyləri Albaniya və İberiyanın hakim nəsiilləri oldular. Həmin nəslin müsəlman hissəsi Azərbaycan tarixinə Baharlı adı ilə daxil olmuşdur. Onların çoxu Qarabağda, az bir qismi İrəvan çuxurunda və Kapan mahalında yaşayırdı. İ. İ. Şopen yazır ki, Baharli Ermənistanda yaşayan Türk tayfalarından biridir [Шопен 1852, 567].

Baharlıların ən döyüşkən alpları baqrationlardan qabaq İberiyanı tutmuş, fasilələrlə IV əsrdən XVIII əsrin əvvəllərinə qədər o ölkədə hökmdar və vilayət hakimləri olmuşdular [Орбелиани 1913, 114; Сулхан Саба 1959, 19]. Baxarlar İberiyanı tutanda hələ Qafqazda xristianlıq yayılmamışdı. Onlar İsus xristosa yox, öz əcdadlarının bütlərinə tapınırdılar [Марр: 1906.s.10]. Baxarlar sonra xristian dinini qəbul etdilər. Eranın 342-ci ilində I Bakar erməniləri məğlub edib İberiyada hökmran oldu [Эсадзе 1801, 6]. 1724-cü ildə tərtib edilən bir salnamədə bildirilir ki, Bakar tayfa başçılarının bir neçəsi Kartlidə çar olmuşdur [Переписка грузинских царей 1836, 156, 174]. Həmin məlumatı daha geniş şəkildə Baqration nəslindən şahzadə Vaxuşti təqdim edir. Yazır ki, gürcü zadəganı Bakar 1717-ci ildə hakimiyyətə gəlib Gürcüstanın 96-cı carı oldu [Вахушти 1976,

105].

Şahzadə Vaxuşti qədim salnamələrə istinadən onu da yazır ki, Bakar alpları əvvəllər Qorq Aslanın tərəfində idilər [Вахушти 1976, 125]. Qorq Aslan Kimer mənşəli idi, eranın V əsrində hakimiyyətə gəlmiş, Baxar və Buxar nəsillərinə qohum olmuşdur. Qorq Aslan Qafqaz Albaniyasının Aran hakimi Varaz Bakurun bacısı oğlu idi. Bakurun göndərdiyi 12 minlik qoşunun köməyi ilə o, yunanları ölkədən qovub, dağlı tayfaları tabe etmişdi [Джуаншериани 1986, 63, 80, 83, 91; Хантадзе 1970, 30].

S. A. Xantadze yazır ki, Qorq Aslan və dayısı Bakur gürcü deyildilər, hansısa Türk tayfasının başçısı idilər [Хантадзе 1970, 83]. Bakar soyadlı bir vilayət hakimi də Baqration nəslindən gürcü çarı Vaxtanqın oğlu idi [Амиранашвили 1956, 49]. Gürcü tarixçiləri özləri təsdiq edirlər ki, Samaria və Yerusəlim ətrafından Qafqaza gələn baqrationların ilkin adı Baqarat olmuşdur [Бакрадзе, Берзенова 1870, 19]. Sözün kökü Baqar / Baxardır, -at çoxluq və etnik mənsubluq şəkilçisidir. Gene D. Matlock yazır ki, baharlar Türk köçəriləridirlər, onlar dünyaya Sibir və Orta Asiyadan yayılıblar [Matlock 2015, 132].

Gürcüstandakı bakarların dili sami dillərinin təsiri ilə qrammatik quruluşunu dəyişmiş Türk dilidir. Çünki onlar Misiri, Fələstini tutub şəhərlər salanda samilərlə qarışmışdılar. Xristian olandan sonra onların dilləri bir daha yad təsirlərə uğrayıb başqa bir dilə çevrildi. Müsəlman baharlılar isə özlərini qorudular, Türk olaraq qaldılar.

Özü də Bahar / Baxar nəslindən olan Vaxusti yazır ki, baqrationlar öz şəcərələrini David və Solomondan başlayırlar [Вахушти 1904, XVII].

David və Solomon yəhudi deyildilər, bene-Kadem övladları idilər. Bibliyada Ön Asiyadan gəlib Yerusəlim, Samaria şəhərini salan xalqlar bene – Kadem övladları, yəni Şərq oğulları adlandırılır. Onlar sami deyildiklər, Turan dillərinin qohum ləhcələrində danışırdılar [Велльгаузен 1909, 177, 413; Блейхштейнер 1936, 190; Хаханов 1895, 1; Коковцев 1932, 55, 59, 72].

Əgər Solomon e.ö. 970-933-cü illərdə, David övladlarından Manassiya e.ö. 698-643-cü illərdə Yerusəlim və Samaria şəhərlərində hökmran olublarsa [Велльгаузен 1909, 177, 413; Иосиф Флавий 52390], bizim atalarımız Yerusəlimin, Samarianın samilərdən öncəki mədəniyyətinin yaradıcılarıdır.

David, Solomon, Manas övladları ataya dede, igid oğlanlara er, səhərə sahar, ölümsüzlüyə olum deyirdilərsə [Вигуру 1897, 301,

304; Велльгаузен: 1909.s.413], onlar bizim əcdadlarımızdır. Biz bu istiqamətdə tədqiqatları davam etdirməli, qırğızların və David övladlarının Manas adını türkoloji baxımdan öyrənməliyik.

**Özbəkistanın böyük şəhərləri – Samarkant**

Özbəkistanın böyük şəhərlərindən biri Samarkantdır. Həmin şəhəri qədim dünyanın Samar xalqı salmışdır. V. V. Bartold yazır ki, X-XV yüzil sənədlərində Samarkant şəhəri Samaria da adlanır [Бартольд 1914, 22]. Samarkant samarların kəndi, Samaria samarların ölkəsi demməkdir.

Samarlar yalnız Özbəkistanda yox, Baykal gölü vadisində, Volqa çayı boyunda, Dnepr çayı sahilində, Qafqazda və Fələstində yaşayırdılar. Baykal gölü vadisindəki bir mahal onların adı ilə XIX əsrədək Samar adlanırdı [Семёнов 2, 1895, 359].

Ruslar Şərqi Sibiri tutanda çoxlu türkcə şəhər və kənd adlarını, o cümlədən Samar mahalının adını dəyişdilər. Tarixi toponimlərimizə qarşı düşmən siyasəti sovet dönəmində davam etdirildi. Volqa çayı boyundakı Samara vilayətinin adı [Таиров 2002, 8] xəritələrdən silindi.

Dnepr çayına tökülən çaylardan biri və o çayın sahilindəki şəhər də Samaria adlanırdı [Боплам Гильом 1832, 18; Древняя история VII. 1760, 112]. 1937-ci ildən sonra nəşr olunan xəritələrdə o şəhərin adı yoxdur.

Samarların Ukraynada yaşayan nəsilləri xristian dinini qəbul edib ruslaşdılar, ancaq çar Rusiyasına qul olmadılar. Kutuzovlar, Suvorovlar, Saltıkovlar kimi knyazlar, generallar oldular [Российский Родословный сборник I. 1840, 13-14].

Samarlar qədim dünyanın elitar nəsillərindən biri kimi ən qədim şəhərlərini Aralıq dənizinin şərq sahilində salmışdılar. Hətta köhnə nəsil tarixçilər arasında samarlarla Şumerləri eyniləşdirənlər var. Kvinta Kursiya 1750-ci ildə nəşr olunan "Böyük Aleksandrın tarixi" kitabında yazır ki, Samar xalqının adı Somer [Квинта Курция 1750, 407], yəni Şumer adından yaranıb.

Samarlar özlərinin qədim şəhərlərindən birini Fələstində salmışdılar [Древняя история VII. 1760, 112; Краткое руководство к древней географии: 1753.s.376]. Bundan başqa onların Aralıq dənizinin şərqində bir neçə şəhəri, kəndi, qalası var idi [Роллен V. 1760, 205]. Qədim dünya tarixinin görkəmli araşdırıcıları Rollen və Struve yazırlar ki, Samaria Aralıq dənizinin şərqində həm yüksək dağ başında qala, həm də dövlət idi [Роллен I. 1751, 39; Струве 1941, 328]. Sonra Samaria şəhəri böyüyüb İzrailin paytaxtı oldu

[Безертинов 2001, 412].

Yevrey tarixçilərinə görə İzrailin paytaxtı Samaria şəhəri eradan öncə 923-cü ildə salınmışdır [Квинта Курция 1750, 195]. O zaman hələ samilər İzrailə gəlməmişdilər, Yerusəlimdən xeyli cənubda İudeyada yaşayırdılar. İudaların Fələstinə gəlişi bundan 7 yüz il sonra eradan əvvəl II əsrdə başladı [Безертинов: 2001, 410].

Avraam Norov yazır ki, Samaria yalnız bir şəhər deyildi, Fələstinin bir vilayəti idi. O şəhər xeyli sonra İzrailin paytaxtı olmuşdur. Assurlar böyük qoşunla gələnə qədər onlar iudalarla vuruşur, onları ölkəyə buraxmırdılar [Авраам Норов: 1854, 1854, 49; Роллен: X. 1762, 499; Историография 2002, 34].

Samarların, xivələrin süqutu Assuriya qoşunlarının Fələstinə basqınları ilə başladı. O zaman Samaria ölkəsi 1 vilayətdən və 2 şəhərdən ibarət idi [Описание Иудейской земли 1824, 63, 65, 67]. Assurlarla döyüşlərdə zəifləyəndən [Роллен X. 1762, 499; Шопен 1866, 199] sonra onların ölkəsinə iudalar basqınları davam etdirdilər.

Assurların basqınlarından və iudaların zülmündən qorunmaq üçün Samaria hakimi Etiopiya hökmdarı Sabak ilə müqavilə bağladı [Роллен II. 1751, 44].

Xeyli müqavimətdən sonra Assuriya hökmdarı Salman Asar onları Midiyaya köçürdü. Samaria və Xivə şəhərlərinə vergi vermək şərtilə iudaları yerləşdirdi [Шопен 1866, 327].

Baron Brambaus ləqəbli Senkovski yazır ki, Assuriya hökmdarı Salman Asar Samarianı eradan öncə 730-cu ildə tutmuşdur [Сенковский VI. 1859, 539]. Deməli, o zamana qədər Samaria iudaların yox, prototürk samarların şəhəri olmuşdur.

Samarlar Matay dövlətinin qonşuluğuna gələndə Mana ölkəsində Samar şəhərini salıb [Меликишвили 1960, 442] eradan öncə IV əsrin ortalarında qədər öz müstəqilliklərini qorudular. Makedoniyalı İsgəndər gələndə Qafqaz dağlarının ətəklərinə və Şimali Qara dəniz çöllərinə çəkildilər. Q.S.Mamulia qədim İber salnamələrinə istinadən yazır ki, Samar qəbilə başçısı Makedoniya qoşunları ilə döyüşdə öldürüldü [Мамулиа 1979, 176].

Samarların az bir hissəsi qədim vətənlərində qalmışdı. Orada siyasi hakimiyyətdən uzaqlaşıb ticarətlə məşğul olurdular. Aralıq dənizində gəmilərə sahib idilər. Makedoniyalı İsgəndər Yerusəlimi tutanda müqavimət göstərmədilər, döyüşsüz təslim oldular [Роллен 1760, 195, 205; Квинта Курция 1750, 195].

Samarianın iudalardan öncəki xalqlarından biri Xivə idi. Onları köhnə nəsil yevrey tarixçiləri Kənan tayfalarından biri kimi

təqdim edirlər. Yazırlar ki, Xivə alpları Aralıq dənizinin şərqinə Yusif Kənanla birlikdə Arandan gəliblər [Эрнст Ренан I. 2750, 89].

Nəzərə alsaq ki, Yusif Kənan Misirdə eradan öncə 1730–1700-cü illərdə hökmran olmuşdur [Рагозина 1902, 32], Xivə qədim Ön Asiyanın elitar prototürk nəsillərindən biridir.

Ernst Renan Bibliyaya və İosif Flaviyə istinadən yazır ki, Yusif Kənanın ətrafına toplaşan Asiyalı tayfaları qonşuları İosephel adlandırırdılar. İosephellər köçəri və mədəni tayfalar idilər [Ренан 2750, 103 – 104].

Həmin mədəni və köçəri tayfalardan biri Xivə idi [Грецъ 1906, 46]. Ernst Renan yazır ki, Xivəli kənanlar Samariaya, yəni Aralıq dənizinin şərq sahilinə Aran ölkəsindən gəliblər [Ренан 2750, 89]. O zamankı Aran ölkəsi Kür və Araz çaylarının aşağı axarının arası yox, Urum gölü ilə Dəclə çayının yuxarı axarının arası idi [Византийские историки 1859, 220; Авдиев 1948, 5].

Xivələr də Samarlar, Buxarlar kimi yalnız Orta Asiyada yox, Fələstində, Misirdə şəhərlər salmış, xanlıqlar, bəyliklər yaratmışdılar. Bir zaman o qədər güclü idilər ki, qədim Misirdə Xeva [Тураев 1920, 116], Siciliyada Kefalu şəhərini salmışdılar [Норов 1828, 229; Всеобший географический и статистический словарь 1843, 551].

Hətta Xəzər dənizi bir zaman onların adı ilə Xevali tenqiz adlanırdı. Qədim rus və slavyan salnamələrində göstərilir ki, Xəzər dənizinin ən qədim adı Xevali idi [Описание Донской земли 1834, 3; Описание Колы и Астрахани 1804, 6].

Xivə alpları Siciliyada latınlarla vuruşdular, ancaq sonda məğlub olub geri çəkildilər. Bu döyüşlər nəticəsində Xivə dilindən Avropa dillərinə çoxlu sözlər, hərbi terminlər keçmişdir.

Eradan əvvəl Roma dövründə yaşamış Mark Terensi Varron yazır ki, latın dilindəki kaput sözü latınlardan əvvəlki çağlara aiddir [Varron 1938, 19].

Xivə dilindəki kafa sözü kaput formasında Avropa dillərinə keçmişdir. Xivə alpları başqa Türk igidləri kimi öldürdükləri düşmənin başını kəsər, qafa tasından içki qabı düzəldib onda qımız, çaxır içərdilər.

Çində yaşayan Türk əsilli kitaylar qafa tasına ağ at və boz buğa qurban kəsərdilər [Ögel 1988, 556], hunlar Çin səfirlərinə qafa tasında qımız içirdərdilər [Ögel 1988, 195].

Mxitar Qoş yazır ki, yepiskop İsrail Şimali Qafqazda olarkən görmüşdü hunlar əcdadların qafa tasını evlərində saxlayır, ayin zamanı ona qurban kəsirlər [Mxitar Qoş 1993, 249].

Qafa tasına tapınan türklərin adı müxtəlif dilli mənbələrdə xiva, xeva, kafa, xivey, kefalu formalarında yazıya alınmışdır [Хоренский 1893, 57; Асохик 1864, 245; Джанашвили 1908, 139, 140; Норов 1828, 229; Сенковский 1859, 276] və sair.

Xivəli türklər son əsrlərə qədər yalnız Özbəkistanda yox, Qırğızıstanda, Krımda da yaşayırdılar. V. V. Radlov XIX əsrin sonlarında qırğızlar arasında üç Kava qəbiləsinin yaşadığını görmüşdü [Радлов 1989, 725]. Xivə alpları öz tarixi varlığını daha sonra Krımda davam etdirdilər. Onların Krımda saldıqları Kafa şəhərində həm özləri, həm Musa peyğəmbərin Torasına tapınan Krımçak və Karaim xalqları yaşayırdılar [Хвольсон 1866, 145].

Kafa şəhəri daha sonra böyüyüb Krımın paytaxtı oldu. Şəhərdə məscidlərdən başqa kilsələr, sinaqoqlar da var idi [Гильом 1832, 38].

Publi Maron Vergili yazır ki, İtaliyadakı Kefalu Etrusk şəhəridir [Энеидв 1933, 18]. Kefalu Etrusk şəhəridirsə, etrusklar İtaliyanın, Siciliyanın çox qədim sakinləridir. Bu məlumat onu göstərir ki, Xivə alpları etrusklarla birlikdə eradan öncə II minilliyin ortalarında Anadoludan İtaliyaya köçmüş, Siciliyada Kefalu şəhərini salmışlar. Bundan qabaq onlar Aralıq dənizinin şərq sahilindəki Sixem şəhərini salmışdılar. Henrix Hrets yazır ki, Sixem Xivə xalqının şəhəridir [Грець 1906, 83].

Ernst Renan yazır ki, Xeva nəsilləri Sixem şəhərinə Arandan [Ренан 2750, 89], yəni Urum gölü ilə Dəclə çayının arasından gəliblər. Xivələrin bir hissəsi də Qafqaza gəlmiş, sonralar Gürcüstanın tərkibinə qatılmış Azərbaycan torpağı Borçlıda Kafa qalasını salmışlar. Həmin qala XX əsrin əvvəllərinə qədər qalırdı [Пагирев 1913, 106].

Mxitar Qoş yazır ki, xristianlıq dövründə Albaniyada Kavaxan adlı mahal var idi. Həmin mahalın bir qalası Kava adlanırdı [Qoş 1993, 167]. Akademik Marr yazır ki, gürcü çariçası Tamarın saray şairi Çaxruxadze Xevə nəslindəndir [Марр 1902, 52]. Çaxrux Türk dillərində çaxan şimşək, ildırım deməkdir. Çaxruxadzenin şeirinlərindəki bir məlumat türkoloji tədqiqat üçün xüsusilə maraqlıdır. Şair yazır ki, çariça Tamar xivəlidir. O, Xevi kəndində doğulub [Марр 1902, 52].

**Nəticə**

Biz bu istiqamətdə elmi tədqiqatları davam etdirməli, yalnız Orta Asiyada yox, Qafqazda, Krımda, Fələstində, İtaliyada yaratdığımız mədəniyyətə varislik iddialarımızı irəli sürməliyik.

**Ədəbiyyat**


Авдиев, В. И. 1939. *Военная история древнего Египта*. Москва: Наука.

Авраам Норов. 1828. *Путешествие по Сицилии*. Т. 1. Санкт-Петербург.

Амиранашвили, Т. Л. 1956. *Бека Опизари*. Тбилиси: Мецниереба.

Архимандрит Иероним. 1883. *Библейская археология*. Т. 1. Санкт-Петербург.

Асохик Степаннос Таронский. 1864. *Всеобщая история*. Москва.

Бартольд, В. В. 1914. *К истории орошения Туркестана*. Санкт-Петербург.

Бакрадзе, Д., и Н. Берзенова. 1870. *Тифлис*. Санкт-Петербург.

Баскаков, Н. А. 1979. *Русские фамилии тюркского происхождения*. Москва: Наука.

Безертинов, Р. Н. 2001. *Татары, тюрки – потрясатели вселенной: История великих империй*. Новосибирск.

Борлам Гильом. 1832. *Описание Украины*. Санкт-Петербург.

Вахушти Багратиони. 1976. *История царства грузинского*. Тбилиси: Мецниереба.

Велльгаузен, Ю. 1909. *Введение в историю Израиля*. Санкт-Петербург.

Вергилий Публий Марон. 1933. *Энеида*. Москва–Ленинград.

Вигуру, Ф. 1897. *Руководство к изучению Библии. Ветхий Завет*. Москва.

*Византийские историки (1118–1180)*. 1859. Санкт-Петербург.

*Всеобщий географический и статистический словарь*. 1843. Санкт-Петербург.

Генрих Грец. 1906. *История евреев*. Т. 1. Одесса.

Джанашвили, М. Г. 1908. *Описание рукописей церковного музея духовенства Грузинской епархии*. Кн. 3. Тифлис.

Джуаншериани Джуаншер. 1986. *Жизнь Вахтанга Горгасала*. Тбилиси: Мецниереба.

*Древняя история*. 1860. Т. VII. Санкт-Петербург.

Matlock, Gene D. 2015. *Ey insanlar, hamınız türksünüz*. Bakı: Xan.

Иосиф Флавий. *Иудейские древности*. Ш №52390. AMEA Mərkəzi Elmi Kitabxanası.

Varronis, Marcus Terentius. 1938. *De Lingua Latina*. Vol. 1. London.

Qoş, Mxitar. 1993. *Alban qanunnaməsi*. Bakı: Azərnəşr.

Ögel, Bahaeddin. 1988. *İslamiyyətdən öncə türk kültür tarihi*. C. I. Ankara.

*Историография истории Древнего Востока*. 2002. Санкт-Петербург.

*История Армении Моисея Хоренского*. 1893. Москва.

Канева, И. Т. 1996. *Шумерский язык*. Санкт-Петербург.

Квинт Курций. 1760. *История о Александре Великом*. Т. 1. Санкт-Петербург.

Коковцев, Н. К. 1932. *Еврейско-хазарская переписка в X веке*. Ленинград: Издательство Академии наук СССР.

*Краткое руководство к древней географии*. 1753. Санкт-Петербург.

Мамулиа, Г. С. 1979. *Формирование классового общества и государства в древней Картли (Иберии)*. Тбилиси: Мецниереба.

Марр, Н. Я. 1902. *Древние одописцы*. Тифлис.

Марр, Н. Я. 1906. *История Грузии*. Санкт-Петербург.

Меликишвили, Г. А. 1960. *Урартские клинообразные надписи*. Москва.

*Описание Донской земли*. 1834. Санкт-Петербург.

*Описание Иудейской земли*. 1824. Одесса.

*Описание Колы и Астрахани*. 1804. Санкт-Петербург.

Орбелиани, И. А. 1913. *Багаванская надпись 639 г. и другие армянские критические надписи VII века*. Санкт-Петербург.

Пагирев, Д. Д. 1913. *Алфавитный указатель к пятиверстной карте Кавказского края*. Тифлис.

*Переписка грузинских царей с Российскими государями, от 1639 г. по 1770 г.* 1836. Санкт-Петербург.

Рагозина, З. А. 1902. *История Ассирии*. Санкт-Петербург.

Радлов, В. В. 1989. *Из Сибири*. Москва: Главная редакция восточной литературы.

Роллен. 1762. *Древняя история*. Т. X. Санкт-Петербург.

Роллен. 1751. *Древняя история*. Т. I. Санкт-Петербург.

Роллен. 1751. *Древняя история*. Т. II. Санкт-Петербург.

Роллен. 1760. *Древняя история*. Т. V. Санкт-Петербург.

*Российский родословный сборник*. 1840. Т. I. Санкт-Петербург.

Семёнов, П. П. 1895. *Живописная Россия*. Т. 2. Санкт-Петербург.

Сенковский. 1859. *Барон Брамбеус. Собрание сочинений*. Т. VI. Санкт-Петербург.

Сулхан-Саба Орбелиани. 1959. *Мудрость вымысла*. Тбилиси.

Таиров, Н. И. 2002. *Акчурины*. Казань.

Тураев, Б. А. 1920. *Египетская литература*. Москва.

Тураев, Б. А. 1915. *Рассказ египтянина Сунухета и образцы египетских документальных автобиографий*. Москва.

Хантадзе, Ш. А. 1970. *Академик Мари Броссе и европейское грузиноведение*. Тбилиси: Мецниереба.

Хаханов, А. С. 1895. *Очерки по истории грузинской словесности*. Вып. I. Москва.

Хвольсон, Д. 1866. *Сборник статей по еврейской истории и литературе*. Кн. 1. Санкт-Петербург.

Чокан Валиханов. 1984. *Собрание сочинений*. Т. I. Алма-Ата: Казахская энциклопедия.

Шопен, И. И. 1852. *Исторический памятник состояния Армянской области в эпоху её соединения к Российской империи*. Санкт-Петербург: Типография Императорской Академии наук.

Шопен, И. И. 1866. *Новое данное о Кавказе и его древних обитателях*. Санкт-Петербург.

Ренан, Эрнст. *История первых веков христианства. Антихрист*. Т. IV. Санкт-Петербург, б. г., 310. Ш №2750. AMEA Mərkəzi Elmi Kitabxanası.

Эсадзе, В. С. 1801. *Летопись Грузии*. Санкт-Петербург.

# Ancient Khiva, Samara and Bukhara Cities of Eurasia

Ilhami Jafarsoy[1*]

**Abstract**

The ancestors of the Uzbek people are one of the founders of ancient states and cultures of not only Central Asia, but also from Northern China to the Mediterranean coast, to Sicily, from the Urals to the Nile Valley.

Three of those elite generations are Khiva, Samar and Bukhar. They had founded the cities of Khiva, Bukhara and Samara in the West Asia and the South Caucasus before the Latins, Greeks and Romans, and they had made sustainable trade relations among Crimea and the Mediterranean Sea and Egypt.

The dukes with the surname of Bukharin from the russian Bukhar generation, and the church chronicler named Bukharalidze Iohan from the georgian Bukhar generation had been known. Such a topical issue is discussed for the scientific community in the article that, the name of the capital of Romania, the city of Bucharest has been derived from the ethnonym Bukhara.

The ethnic identity of the Bukhara generation, which is related to the Bukhara generation, has become the object of the ethnolinguistic research in the article. One branch of the Bukhara generation was one of the authority dynasties of Iberia, and another branch founded the city of Bukhara in ancient Egypt.

Some of them also created a powerful navy in the Mediterranean Sea and occupied the island of Sicily, and they founded the city of Bakhar before the Latins.

One of the elite generation of Eurasia is Samar. They are the creators of not only Central Asia, but also ancient West Asia, eastern coast of the Mediterranean Sea, and the states and cultures of Turkic lands later called as Southern Russian steppes till the Slavs, Jews and Indo-Europeans.

The Samars and the Khivas were related peoples. Their name is mentioned in Sumerian cuneiform inscriptions dating back to the III millenium B.C. They migrated from the Aran region of Azerbaijan to Phoenicia. They built the Samar fortress on a high mountain and established one of the ancient proto-Turkic states.

Ernest Renan writes in his book entitled as "The History of the

[1] *Ilhami Yusif Jafarsoy* – doctor of philological sciences, associate professor, Institute of Linguistics named after Nasimi ANAS.
**E-mail:** cfrsoy@mail.ru
**ORCİD İD:** 0000-0003-3453-2657
**For citation:** Ilhami Jafarsoy. S. 2026. "Ancient Khiva, Samara and Bukhara Cities of Eurasia". *Uzbekistan: Language and Culture* 2: 172 – 184.

Origins of Christianity" published in 1873 that, when the Samaritans founded the city in Phoenicia as part of the community of Canaan tribe, and established the state for themselves, the Jews hadn't arrived in Palestine, yet.

The Samaritans also founded a city in the South Caucasus. That city remained until the period of Alexander the Great.

The ancestors of the Uzbek people named Khiva, Bukhara and Samara are the ancestors of both the Uzbeks and the Azerbaijani and Anatolian Turks. We must turn these historical ethnogenetic and ethnolinguistic ties into the object of scientific research, together.

**Key words:** *Khiva, Bukhar, Samar, Uzbek, Turk, Aran, Phoenicia.*

**References**

Avdiev, V. I. 1939. *Voennaya istoriya drevnego Yegipta*. Moskva: Nauka.
Avraam Norov. 1828. *Puteshestvie po Sitsilii*. T. 1. Sankt-Peterburg.
Amiranashvili, T. L. 1956. *Beka Opizari*. Tbilisi: Mesniereba.
Arximandrit Ieronim. 1883. *Bibleyskaya arxeologiya*. T. 1. Sankt-Peterburg.
Asoxik Stepannos Taronskiy. 1864. *Vseobshaya istoriya*. Moskva.
Bartold, V. V. 1914. *K istorii orosheniya Turkestana*. Sankt-Peterburg.
Bakradze, D., i N. Berzenova. 1870. *Tiflis*. Sankt-Peterburg.
Baskakov, N. A. 1979. *Russkie familii tyurkskogo proisxojdeniya*. Moskva: Nauka.
Bezertinov, R. N. 2001. *Tatari, tyurki – potryasateli vselennoy: Istoriya velikix imperiy*. Novosibirsk.
Borlam Gilom. 1832. *Opisanie Ukraini*. Sankt-Peterburg.
Vaxushti Bagrationi. 1976. *Istoriya sarstva gruzinskogo*. Tbilisi: Mesniereba.
Vellgauzen, Yu. 1909. *Vvedenie v istoriyu Izrailya*. Sankt-Peterburg.
Vergiliy Publiy Maron. 1933. *Eneida*. Moskva–Leningrad.
Viguru, F. 1897. *Rukovodstvo k izucheniyu Biblii. Vetxiy Zavet*. Moskva.
*Vizantiyskie istoriki (1118–1180)*. 1859. Sankt-Peterburg.
*Vseobshiy geograficheskiy i statisticheskiy slovar*. 1843. Sankt-Peterburg.
Genrix Gres. 1906. *Istoriya yevreev*. T. 1. Odessa.
Djanashvili, M. G. 1908. *Opisanie rukopisey serkovnogo muzeya duxovenstva Gruzinskoy yeparxii*. Kn. 3. Tiflis.
Djuansheriani Djuansher. 1986. *Jizn Vaxtanga Gorgasala*. Tbilisi: Mesniereba.
*Drevnyaya istoriya*. 1860. T. VII. Sankt-Peterburg.
Matlock, Gene D. 2015. *Ey insanlar, hamınız türksünüz*. Bakı: Xan.
Iosif Flaviy. *Iudeyskie drevnosti*. Sh №52390. AMEA Mərkəzi Elmi Kitabxanası.
Varronis, Marcus Terentius. 1938. *De Lingua Latina*. Vol. 1. London.
Qoş, Mxitar. 1993. *Alban qanunnaməsi*. Bakı: Azərnəşr.
Ögel, Bahaeddin. 1988. *İslamiyyətdən öncə türk kültür tarihi*. C. I. Ankara.
*Istoriografiya istorii Drevnego Vostoka*. 2002. Sankt-Peterburg.
*Istoriya Armenii Moiseya Xorenskogo*. 1893. Moskva.
Kaneva, I. T. 1996. *Shumerskiy yazik*. Sankt-Peterburg.
Kvint Kursiy. 1760. *Istoriya o Aleksandre Velikom*. T. 1. Sankt-Peterburg.

Kokovsev, N. K. 1932. *Yevreysko-xazarskaya perepiska v X veke*. Leningrad: Izdatelstvo Akademii nauk SSSR.

*Kratkoe rukovodstvo k drevney geografii*. 1753. Sankt-Peterburg.

Mamulia, G. S. 1979. *Formirovanie klassovogo obshestva i gosudarstva v drevney Kartli (Iberii)*. Tbilisi: Mesniereba.

Marr, N. Ya. 1902. *Drevnie odopissi*. Tiflis.

Marr, N. Ya. 1906. *Istoriya Gruzii*. Sankt-Peterburg.

Melikishvili, G. A. 1960. *Urartskie klinoobraznie nadpisi*. Moskva.

*Opisanie Donskoy zemli*. 1834. Sankt-Peterburg.

*Opisanie Iudeyskoy zemli*. 1824. Odessa.

*Opisanie Koli i Astraxani*. 1804. Sankt-Peterburg.

Orbeliani, I. A. 1913. *Bagavanskaya nadpis 639 g. i drugie armyanskie kriticheskie nadpisi VII veka*. Sankt-Peterburg.

Pagirev, D. D. 1913. *Alfavitnыy ukazatel k pyativerstnoy karte Kavkazskogo kraya*. Tiflis.

*Perepiska gruzinskix sarey s Rossiyskimi gosudaryami, ot 1639 g. po 1770 g.* 1836. Sankt-Peterburg.

Ragozina, Z. A. 1902. *Istoriya Assirii*. Sankt-Peterburg.

Radlov, V. V. 1989. *Iz Sibiri*. Moskva: Glavnaya redaksiya vostochnoy literaturы.

Rollen. 1762. *Drevnyaya istoriya*. T. X. Sankt-Peterburg.

Rollen. 1751. *Drevnyaya istoriya*. T. I. Sankt-Peterburg.

Rollen. 1751. *Drevnyaya istoriya*. T. II. Sankt-Peterburg.

Rollen. 1760. *Drevnyaya istoriya*. T. V. Sankt-Peterburg.

*Rossiyskiy rodoslovnыy sbornik*. 1840. T. I. Sankt-Peterburg.

Semyonov, P. P. 1895. *Jivopisnaya Rossiya*. T. 2. Sankt-Peterburg.

Senkovskiy. 1859. *Baron Brambeus. Sobranie sochineniy*. T. VI. Sankt-Peterburg.

Sulxan-Saba Orbeliani. 1959. *Mudrost vыmыsla*. Tbilisi.

Tairov, N. I. 2002. *Akchurinы*. Kazan.

Turaev, B. A. 1920. *Yegipetskaya literatura*. Moskva.

Turaev, B. A. 1915. *Rasskaz yegiptyanina Sunuxeta i obrazsi yegipetskix dokumentalnix avtobiografiy*. Moskva.

Xantadze, Sh. A. 1970. *Akademik Mari Brosse i yevropeyskoe gruzinovedenie*. Tbilisi: Mesniereba.

Xaxanov, A. S. 1895. *Ocherki po istorii gruzinskoy slovesnosti*. Vыp. I. Moskva.

Xvolson, D. 1866. *Sbornik statey po yevreyskoy istorii i literature*. Kn. 1. Sankt-Peterburg.

Chokan Valixanov. 1984. *Sobranie sochineniy*. T. I. Alma-Ata: Kazaxskaya ensiklopediya.

Shopen, I. I. 1852. *Istoricheskiy pamyatnik sostoyaniya Armyanskoy oblasti v epoxu yeyo soedineniya k Rossiyskoy imperii*. Sankt-Peterburg: Tipografiya Imperatorskoy Akademii nauk.

Shopen, I. I. 1866. *Novoe dannoe o Kavkaze i yego drevnix obitatelyax*. Sankt-Peterburg.

Renan, Ernst. *Istoriya pervix vekov xristianstva. Antixrist*. T. IV. Sankt-Peterburg, b. g., 310. Sh №2750. AMEA Mərkəzi Elmi Kitabxanası.